# "Bakının ulduzları" instrumental ansamblının ifasında konsert proqramı təşkil edilib

**Azərbaycan Bəstəkarlar İttifaqında Üzeyir bəy Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə "Üzeyir Hacıbəyli - 140" silsiləsindən "Bakının ulduzları" instrumental ansamblının ifasında konsert proqramı təşkil olunub.**




İttifaqdan bildirilib ki, konsertdən əvvəl çıxış edən Azərbaycan Bəstəkarlar İttifaqının katibi, sənətşünaslıq üzrə elmlər doktoru, dosent Leyla Zöhrabova dahi bəstəkar Üzeyir bəy Hacıbəyli məktəbinin yetirməsi olan görkəmli bəstəkar Cahangir Cahangirovun yaradıcılığı haqqında ətraflı danışıb.

Daha sonra Bakı Xoreoqrafiya Akademiyasının "Bakının ulduzları" instrumental ansamblının ifasında Üzeyir bəy Hacıbəylinin, Cahangir Cahangirovun mahnıları səslənib.

Azərbaycan.- 2025.- 1 iyun (№113).- S.9.